# Azərbaycan-İran əlaqələri bütün sahələrdə uğurla inkişaf edir

**Azərbaycan və İran xalqlarının dərin tarixi və mədəni əlaqələri mövcuddur. Xalqlarımız əsrlər boyu bir yerdə yaşamış və yaratmışlar. Ölkələrimizin tarixi, mədəniyyəti, milli irsi xalqlarımız üçün əziz və dəyərlidir. Azərbaycanın dövlət başçısı cənab İlham Əliyevin İrana etdiyi səfərlər İran-Azərbaycan əlaqələrinin inkişafında çox mühüm rol oynayıb və bu münasibətlərin bütün sahələrdə uğurlu inkişafını təmin edib. Azərbaycan Respublikası və İran İslam Respublikası iki yaxın qonşu, dost, qardaş ölkələrdir.**

Ölkələrimiz arasındakı səmimi münasibətlər xalqlarımızın xeyrinədir. Həmçinin Azərbaycan və İran arasındakı dərinləşən münasibətlər regionda sülhün, əmin-amanlığın və təhlükəsizliyin xeyrinədir. Ölkələrimizin beynəlxalq təşkilatlarda da uğurlu fəaliyyət göstərdiyini vurğulayan dövlətimizin başçısı cənab İlham Əliyev bildirib ki, BMT, İslam Əməkdaşlıq Təşkilatı, ECO, Qoşulmama Hərəkatı təşkilatlarında bizim fəaliyyətimiz çox uğurludur: “Bizim üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün İranın dəstəyi çox önəmlidir. Bu münaqişə BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi əsasında öz həllini tapmalıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. İran İslam Respublikasının bu münaqişə ilə bağlı ortaya qoyduğu mövqe ədalətə, beynəlxalq hüquqa əsaslanır”.

Siyasi-iqtisadi əməkdaşlıq sahəsində bir sıra mühüm məsələlərin həllinə nail olan ölkələrimizin münasibətləri çox yaxşı nümunədir. Regionun ən inkişaf etmiş dövləti olan Azərbaycan ilə əməkdaşlıq İranın xarici siyasətində mühüm istiqamətdir, - deyən İranın Azərbaycandakı səfiri Möhsün Pakayin bildirib ki, son iki ildə İran diplomatiyası nüvə proqramı ilə əlaqədar tətbiq edilmiş ədalətsiz sanksiyaların aradan qaldırılmasına çalışsa da, Azərbaycan ilə də əlaqələrin inkişaf etdirilməsi unudulmamışdır. Bu müddət ərzində rəsmi Tehran ilə Bakı arasında siyasi, mədəni, iqtisadi əlaqələrin inkişafı istiqamətində böyük işlər görülüb.

İran səfiri ölkəsinin “Şahdəniz” layihəsində iştirakını, vətəndaşların Naxçıvan Muxtar Respublikasına asanlaşdırılmış viza sistemi ilə keçməsini, Biləsuvar (İran) - Biləsuvar (Azərbaycan) sərhəd-keçid məntəqəsinin açılmasının, Araz çayı üzərində salınan Culfa (İran) - Culfa Azərbaycan körpüsünün istifadəyə verilməsinin, Qəzvin - Rəşt - Astara (İran) - Astara (Azərbaycan) dəmir yolunun çəkilməsində əməkdaşlığın əldə olunmasını tərəflər arasındakı əlaqələrin yüksək səviyyədə olmasının təzahürü kimi dəyərləndirib.

Məlumat üçün bildirək ki, iki dövlət arasında fövqəladə halların idarə edilməsi sahəsində, gənclər və idman sahəsində, ekologiya və təbii sərvətlərlə əlaqədar məsələlər sahəsində imzalanan Anlaşma Memorandumları, Azərbaycanın İqtisadiyyat və Sənaye Nazirliyi və İranın Energetika Nazirliyi tərəfindən “Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında “Ordubad” və “Marazad” Su Elektrik stansiyalarının tikintisi və istismarı haqqında Saziş”in imzalanması da ölkələrimiz arasında əməkdaşlığın dərinləşməsinə böyük töhfədir.

2014-cü ilin əvvəlində Azərbaycan Prezidenti İlham Əliyevin İran Prezidenti Həsən Ruhani ilə Davosdakı görüşündən, eləcə də dövlətimizin başçısının həmin ilin aprelində Tehrana rəsmi səfərindən sonra ölkələrimiz arasında əlaqələr yeni inkişaf mərhələsinə qədəm qoyub. Hazırda Azərbaycan-İran əlaqələri iqtisadiyyatın müxtəlif sahələrində uğurla davam edir və bu əməkdaşlığın genişlənməsində iş adamları arasında əlaqələrin inkişafı da mühüm əhəmiyyət daşıyır. Bütün bunlar ikitərəfli əlaqələrin genişlənməsini sürətləndirir.

**Şükür ƏLİZADƏ,**
**“Respublika”.**